# BİLİKLƏRİN İDARƏ EDİLMƏSİ SAHƏSİNDƏ SİYASƏT

**1. Ümumi müddəalar**

1.1. Biliklərin idarə edilməsi sahəsində siyasət (bundan sonra Siyasət) Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın (bundan sonra Observatoriya) biliklərin idarə edilməsi sahəsində məqsədlərini, prinsiplərini və əsas vəzifələrini müəyyən edir.

1.2. Bu Siyasət fəaliyyətlərin davamlılığını təmin etmək, qərarların keyfiyyətini artırmaq və institusional yaddaşı qorumaq məqsədi daşıyır.

1.3. Biliklərin idarə edilməsi sistemi ISO 30401:2018 tələbləri nəzərə alınmaqla hazırlanmışdır və Observatoriyanın bütün struktur bölmələrinə tətbiq olunur.

**2. Biliklərin idarə edilməsi məqsədləri**

Observatoriya aşağıdakı məqsədlər üçün biliklərin idarə edilməsi sistemini tətbiq edir:

- İdarəetmə təcrübələrində ardıcıllığı və davamlılığı təmin etmək;
- Biliklərin itirilməsi riskini azaltmaq;
- Fəaliyyətlərin səmərəliliyini və şəffaflığını artırmaq;
- Qərar qəbuletmə, innovasiya və inkişaf imkanlarını dəstəkləmək;
- Normativ və metodoloji məlumatların aktuallığını təmin etmək;
- Səhvlərin təkrarlanmasının qarşısını almaq;
- Xidmət və idarəetmə keyfiyyətini yüksəltmək.

**3. Əsas prinsiplər**

Observatoriyada biliklərin idarə edilməsi aşağıdakı prinsiplərə əsaslanır:

- Biliyin mahiyyəti;
- Dəyər;
- Fokuslanma;
- Adaptivlik;
- Biliklərin ümumiləşdirilməsi;
- Biliyin idarə edilməsi mühiti;
- Biliyin idarə edilməsi mədəniyyəti;
- Mərhələli yanaşma.

**4. Observatoriyanın əsas vəzifələri**

4.1. Müəyyən olunmuş vəzifələrin yerinə yetirilməsi üçün zəruri olan bilikləri müəyyən edir və nəzarətdə saxlayır;

4.2. Normativ, metodoloji və analitik materialların vahid bilik bazasında yaradılmasını, yenilənməsini və saxlanmasını təmin edir;

4.3. Görüşlər, təlim tədbirləri, mentorluq və digər qarşılıqlı əlaqə formaları vasitəsilə bilik mübadiləsini təşkil edir;

4.4. Kadr dəyişiklikləri zamanı (vəzifələrin ötürülməsi, ekspert təcrübəsinin qeydə alınması) biliklərin qorunması prosedurlarını tətbiq edir;
4.5. Biliklərə təsir edən dəyişikliklərin idarə edilməsini təmin edir;
4.6. Biliklərin idarə edilməsi sisteminin effektivliyini təmin edir.

**5. Səlahiyyətlər və məsuliyyətlər**

5.1. Observatoriyanın rəhbəri bu Siyasətin həyata keçirilməsini və lazımi resursların ayrılmasını təmin edir;
5.2. Struktur bölmələrin rəhbərləri fəaliyyət sahələrində biliklərin aktuallığını təmin edir;
5.3. Observatoriyanın işçiləri əmək funksiyalarının icrasında mövcud biliklərdən istifadə etməyə, onların ötürülməsində və yenilənməsində iştirak edir.

**6. Sistemin təkmilləşdirilməsi**

Observatoriya biliklərin idarə edilməsi sisteminin effektivliyinin müntəzəm qiymətləndirilməsini təmin edir və onu təkmilləşdirmək üçün tədbirlər görür.
Bu Siyasət qanunvericilikdə, Observatoriyanın strukturunda və ya strateji məqsədlərində dəyişikliklər baş verdikdə yenidən nəzərdən keçirilə bilər.

**İdarə Heyətinin sədri _____________ Elnur Səfərli**

**“____” _______________ 2026-cı il**

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya" Publik Hüquqi Şəxs